Azərbaycan Respublikası
Nazirlər Kabinetinin 2026-cı il
“ 3 ” avqust tarixli
258 nömrəli Qərarı ilə
**təsdiq edilmişdir.**

## Müvafiq bazarda sahələrin təmərküzləşmə səviyyəsinin müəyyən edilməsi

## QAYDASI

### 1. Ümumi müddəalar

1.1. Bu Qayda Azərbaycan Respublikası Rəqabət Məcəlləsinin 27.3-cü maddəsinə uyğun olaraq hazırlanmışdır və müvafiq bazarda sahələrin təmərküzləşmə səviyyəsini müəyyən edir.

1.2. Bu Qaydada istifadə olunan anlayışlar Azərbaycan Respublikasının Rəqabət Məcəlləsi və Azərbaycan Respublikasının digər normativ hüquqi aktları ilə müəyyən edilmiş mənaları ifadə edir.

### 2. Müvafiq bazarda sahələrin təmərküzləşmə səviyyəsinin müəyyən edilməsi

2.1. Müvafiq bazarda sahələrin təmərküzləşmə səviyyəsinin müəyyən edilməsi məqsədilə ilk növbədə müvafiq bazarın iştirakçısı olan təsərrüfat subyektlərinin müvafiq bazarda bazar payları hesablanır. Təsərrüfat subyektlərinin müvafiq bazarda bazar payları Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2025-ci il 10 mart tarixli 66 nömrəli Qərarı ilə təsdiq edilmiş “Müvafiq bazarda bazar paylarının hesablanması, müvafiq bazarın məhsul və coğrafi sərhədlərinin, həcminin, strukturunun və iştirakçılarının müəyyən edilməsi Qaydası”nın 7.1-ci bəndinə uyğun olaraq hesablanır.

2.2. Müvafiq bazarda sahələrin təmərküzləşmə səviyyəsi müvafiq bazarda təhlil edilən dövr ərzində fəaliyyət göstərən təsərrüfat subyektlərinin bazar paylarına dair məlumatlardan istifadə etməklə “Müvafiq bazarda bazar paylarının hesablanması, müvafiq bazarın məhsul və coğrafi sərhədlərinin, həcminin, strukturunun və iştirakçılarının müəyyən edilməsi Qaydası”nın 1.2.1-ci yarımbəndinə uyğun olaraq Herfindal-Hirşman İndeksi (HHİ göstəricisi) ilə aşağıdakı düsturlarla müəyyən edilir:

$$\text{HHİ} = s1^2+s2^2+s3^2+\ldots+sn^2$$

və ya

$$\text{HHİ}=(s1^2+s2^2+s3^2+\ldots+sn^2)/100$$

HHİ - Herfindal-Hirşman İndeksi
s - təsərrüfat subyektinin bazar payı.

2.3. HHİ göstəricisi 0 və 10000 (100 faiz) kəmiyyətləri arasında dəyər alır. HHİ göstəricisinin 0-1500 (0-15 faiz) arasında müəyyənləşməsi müvafiq bazarda təmərküzləşmənin aşağı səviyyədə olduğunu, 1500-2500 arasında (15-25 faiz) müəyyənləşməsi müvafiq bazarda təmərküzləşmənin orta səviyyədə olduğunu, 2500-dən

(25 faizdən) yuxarı həddə müəyyənləşməsi isə müvafiq bazarda təmərküzləşmənin yüksək səviyyədə olduğunu göstərir. HHİ göstəricisinin 1500-dən (15 faizdən) aşağı səviyyədə müəyyənləşməsi rəqabətli bazar strukturunu, 10000 kəmiyyəti (100 faiz) alması isə tam inhisar bazar strukturunu ifadə edir.